# AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

## Dendrologiya İnstitutu

https://dendrologiya.az/

Zəngin tarixə malik Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Dendrologiya İnstitutunun əsası 1926-45-ci illərdə akademik Nikolay İvanoviç Vavilovun təşəbbüsü ilə Bakı şəhəri Mərdəkan qəsəbəsində yaradılıb. 1966–1996-cı ildə Azərbaycan Elmlər Akademiyası Nəbatət İnstitutunun elmi strukturuna daxil olmuşdur. 1996-cı ildən isə AMEA-nın Rəyasət Heyətinin və Biologiya Elmlər bölməsinin qərarı ilə, (indiki AR ETN Dendrologiya İnstitutu) Mərdəkan Dendrarisi Biologiya Elmləri bölməsinə tabe edilmiş, ona hüquqi status verilmişdir. 2014-cü ildən AMEA Mərdəkan Dendrarisi, AMEA-nın Rəyasət Heyətinin qərarı ilə Dendrologiya İnstitutu adını almışdır.

Azərbaycan Respublikası Prezidentinin 28 iyul 2022-ci il tarixli Fərmanına əsasən Dendrologiya İnstitutu Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyinə verilmişdir.

Hazırda İnstitutun baş direktoru Minarə Həsənova, icraçı direktoru isə Mərdan Tağıyevdir.

**İnstitutun əsas elmi istiqaməti:**

Azərbaycanda təbii, mədəni və yeni introduksiya olunmuş ağac - kol bitkilərinin biomüxtəlifliyi və məlumat bankının yaradılması. Təbii və mədəni şəraitdə becərilən bitkilərin assortimentinin genişlənməsi və onların genofondunun mühafizəsi və saxlanması üçün biomüxtəlifliyin populyasiyalarının tərkibi, introduksiya və seleksiya sahələrin üzrə öyrənilməsi; Azərbaycanda ağac bitkilərinin növdaxili dəyişkənliyinin və populyasiya strukturunun tədqiqatı, regionda növlərin populyasiya əsasında genofondunun saxlanılması və qorunması; ağac və kolların yeni dekorativ sort və formalarının bioekologiyasının qiymətləndirilməsi; meşə, təbiət abidələri, bağ-park obyektlərinin seçilməsi və öyrənilməsi; sənaye və dərman əhəmiyyətli bitkilərin introduksiyası, uyğunlaşması, yaşıllaşdırılmada tətbiqi, efir yağı və bioloji fəal maddələrin alınma texnologiyası üzrə tədqiqatların aparılması.

Təbii və mədəni şəraitdə becərilən bitkilərin genofondunun saxlanıması, ağac və kol bitkilərinin yeni dekorativ sortlarının forma müxtəlifliyinin qiymətləndirilməsi, meşə,

şəhər və meşə-park landşaftlarının tərtibatı üçün ağac və kol cinsləri assortimentinin seçilməsi üçün tədqiqatların aparıması.

**Şöbə və laboratoriyalar:**

1. Ekologiya və İqlimləşdirmə şöbəsi.
2. Ağac-kol bitkilərinin introduksiyası və iqlimləşdirilməsi laboratoriyası.
3. Bitki mühafizəsi laboratoriyası.
4. Bitki sistematikası laboratoriyası.
5. Bəzək memarlığı laboratoriyası.
6. Dendroxronologiya laboratoriyası.
7. Sənaye əhəmiyyətli biktilər laboratoriyası.
8. Meşə ekosistemləri laboratoriyası.
9. Mərkəzləşdirilmiş eksperimental laboratoriya.

## STATİSTİK MƏLUMATLAR

## Dendrologiya İnstitutu

